# Mifopoetikaya ümumi baxış

**Leyla Bağırova**
Azərbaycan Dillər Universiteti. Azərbaycan.
E-mail: leyla_ceferi@mail.ru

**Annotasiya.** Mif reallığın təhtəlşüurdakı poetik təcəssümüdür. Miflər insanların ən qədim dövrlərdə varlığı və kainatı adlandırma cəhdlərinin məhsulu kimi ortaya çıxmışdır. XX əsrin ikinci yarısından sonra ədəbiyyatda miflərə yanaşma prinsiplərində bir çox fərqli tendensiyalara təsadüf olunmağa başlanılmışdır. Bu da mifopoetikanın inkişafına zəmin yaratmışdır. Mifopoetika bədii mətnə mifoloji baxış bucağından yanaşaraq oradakı mifoloji struktur və obrazları öyrənməklə poetikanın bir qolunu təşkil edir. Mifopoetika yazıçının mifoloji xarakterin qeyri-mifoloji mətnə interpretasiyasının forma və xüsusiyyətlərini öyrənir.
**Açar sözlər:** mifopoetika, mif, mifologiya, poetika, mifologem

**Məqalə tarixçəsi:** göndərilib – 16.10.2020; qəbul edilib – 28.10.2020

# A general overview of mythopoetics

**Leyla Baghirova**
Azerbaijan University of Languages. Azerbaijan.
E-mail: leyla_ceferi@mail.ru

**Abstract**. Myth is a poetic embodiment of reality in the subconscious. Myths have emerged in ancient times as the product of human attempts to name existence and the universe. After the second half of the 20th century, many different tendencies began to appear in the literature on the principles of approach to myths. This laid the foundation for the development of mythopoetics. Mythopoetics forms a branch of poetics by studying the mythological structure and characters of the literary text from a mythological point of view. Mythopoetics studies the forms and features of a writer's interpretation of a mythological character into a non-mythological text.
**Keywords:** mythopoetics, myth, mythology, poetics, mythologem

**Article history:** received – 16.10.2020; accepted – 28.10.2020

## Giriş / *Introduction*

Mifopoetika bədii mətndə müəllif tərəfindən yenidən yaradılmış dünyanın mifopoetik modelini öyrənən, simvollar sistemini əhatə edən özünəməxsus poetika sahəsidir. Mifopoetika yalnız mifik obraz, süjet və motivlərin iştirak etdiyi mətnlərin araşdırılmasına şamil oluna bilər. Bu baxımdan sözügedən poetik sistemin mifləri öyrənən mifologiya və ədəbi nümunələrin bədii-estetik tərəflərini şərh edən poetikadan fərqli cəhətlərini bilmək lazımdır. "Mifopoetika, mifologiya və poetikadan fərqli olaraq "xüsusi bir sahədir". Lakin orada həm mif, həm də poetika mövcuddur. Mif, bildiyiniz kimi, tanrılar və qəhrəmanlar haqqında qədim xalq əfsanəsidir, zaman zaman olmayınca, mif zamandan kənarda qalır" [13]. Müəllifə görə, mif xalqın "toplu təhtəlşüur"unun məhsuludur, mifologiya da məhz onu öyrənir. Mifopoetika isə fərdi yaradıcılığı təhlil edir.

## Əsas hissə / *Main Part*

Uzun zaman mif və mifologiya deyildikdə, modernizmdən öncə ədəbiyyatdakı uyğun cəhətlər nəzərdə tutulurdu. Lakin məlum oldu ki, əksər müasir ədəbi axın və cərəyanların kökləri də bir çox məqamlarda mifologiyaya dayanmaqdadır. Buradakı mifoloji ünsürlər klassik ədəbiyyatdakı təzahür xüsusiyyətlərindən əsaslı şəkildə fərqlənməkdə idi. Ona görə də modern dönəmdən etibarən bədii mətndə, eləcə də incəsənətin digər sahələrində miflərin izlərini və formalarını araşdırmaq qədim və zəngin mifoloji sistemi yaşatmaqla yanaşı, ədəbiyyata yeni bir yanaşma tərzi gətirmişdir. Çünki artıq məlum olmuşdur ki, "miflər uydurma, surət və qeyri-həqiqi olmaqdan uzaq, əksinə, həqiqəti fərqli bir baxış bucağından qəbul etmək və anlamaq məqsədilə insanın xəyal gücündən istifadə edərək yaratdığı, yeniləşdirdiyi və zənginləşdirdiyi – insan toplu olaraq buna məcbur görünür – bir növdür" [3, s.29]. Bu da mifopetikanın formalaşmasına zəmin yaratmışdır.

Mif reallığın təhtəlşüurdakı poetik təcəssümüdür. Mif həm məqsəd və vasitə, həm forma və məzmun, həm süjet və obraz, işarə, simvol, məna, prinsip və ideal kimi çıxış edir, amma ayrılıqda bunlardan heç biri deyil. Eyni zamanda mif, din, ədəbiyyat eyni kökləri olan, dünyanı sözlə izahın bir-birini tamamlayan tarixi formalardır. Mif həm din, həm də təbiəti tanımanın bir şəklidir. "Mifdə ruhlar, tanrılar keçmişə, indiyə, gələcəyə müdaxilə edə bilir, bu zaman anlayışların özü hələ bir-birindən tam ayrılmayıb, əksinə, birlikdə qovuşuq, qapalı, əbədi əsatiri dövrü təşkil edir" [2, s.40].

Mif yaradılış hadisəsi kimi bütöv prosesin - xaosdan kosmosa keçidin məzmununu özündə əks etdirən bilik qaynağıdır. Mifin struktur-məzmununun bütövlüyü onu bir dünyagörüşü sistemi kimi adlandırmağa da imkan verir. Mifin xarakteri onun universallığı ilə ortaya çıxdığı zaman ədəbi olmaqla yanaşı, metaədəbi hadisəyə çevrilir. Mif haqqında müxtəlif fikirlər mövcuddur. Həmin fikirləri ümumiləşdirərək ən uyğun şəkillərdən birində ifadə edən M.Eliade yazır: "...Əhatəli olduğu üçün ən az qüsurlu olan tərif budur: Mif müqəddəs bir hekayəni danışır. Ən qədim zamanda "başlanğıcdakı" nağıllara xas zamanda olub, bitmiş bir hadisəni təhkiyə edir. Bir başqa sözlə, mif fövqəltəbii varlıqların nailiyyətləri sayəsində istər tam olaraq bütün gerçəklik, istərsə onun yalnız bir parçası (məsələn, bir ada, bitki növü, insan davranışı, bir qurum) olsun, bir reallığın necə meydana gəldiyini dilə gətirir. Beləliklə, mif hər zaman "yaradılış" hekayəsidir, bir şeyin necə yaradıldığını, necə yarandığını izah edir [1, s.15-16].

Miflər insanların ən qədim dövrlərdə varlığı və kainatı adlandırma cəhdlərinin məhsulu kimi ortaya çıxmışdır. İlkin tarixin insani təcrübələri nəticəsində meydana gələn miflər sonrakı dövrlərdə milli dünyagörüşdə çeşidli fərqliliklər qazansa da, insan tarixinin ortaq hekayələrini ifadə etdiyi üçün universalizmi ilə də tanınmaqdadır. Yəni mifologiya insan mədəniyyətinin ilk ifadəsidir. Ona görə də miflər universal xarakterə və yaradıcıya sahib olduğu üçün sonrakı dövr ədəbiyyatında ondan istifadə haqqını vermiş, lakin müəllifsizliyini qoruyub saxlamışdır. "Mif bir hekayədir, lakin yazarı bəlli deyil, tərtib edib təkrarlaya bilərik, ancaq müəllifi ola bilmərik" [5, s.30].

Mifin mühüm bir xüsusiyyəti də onun toplu yaradıcılıq məhsulu olmasıdır. Mifopoetikanın predmeti olan miflərdən fərqli olaraq mifologiyanın predmeti məhz fərdi deyil, toplu yaradıcılıq aktı kimi meydana çıxan fenomenin öyrənilməsidir: "Mif kollektiv poetik yaradıcılığın məhsuludur. Miflərin yaranmasının kollektiv xarakteri onların mövcudluğunun xarici şərtləri, hər şeydən əvvəl yazılı dilin olmaması ilə müəyyənləşdirilir. Öz növbəsində, mif özünün kollektiv etiologiyaya gücü ilə və variantlılığı ilə estetik qiymətləndirmədən kənarda qalır; bir mif bir dəfə yarana bilməz, davamlı yaradılır" [10].

Mifologiya geniş mənada mifləri öyrənən bir elm sahəsidir. Burada tarixilik ön plandadır, miflər bəşər tarixinin erkən mərhələlərinə aid olduğu üçün onların öyrənilməsində də sözügedən prinsip mühüm əhəmiyyət daşıyır. Miflərin sinkretikliyi onları yalnız mifologiyanın deyil, etnologiya, antropologiya, folklor, sosiologiya, psixologiya, dilçilik sahələrinin də predmetinə

çevirmişdir. Bədii ədəbiyyat müstəvisinə gətirilən tarixi miflər isə daha çox mifologiyanın obyektidir. Bu baxımdan da "mifologiya müasir dövrümüzdə müəyyən bir din və kültürdəki insanlıq ilə kainatın yaradılış və təbiətini, ənənələrə xas inanc və ritualların səbəbini açıqlamağa yönəlmiş bütün əfsanələri müəyyən etmək üçün istifadə olunmaqdadır" [4, s. 833-834].

Mifopoetika bədii mətnə mifoloji baxış bucağından yanaşaraq oradakı mifoloji struktur və obrazları öyrənməklə poetikanın bir qolunu təşkil edir. Mifopoetika, eyni zamanda, incəsənətin müxtəlif sahələrində də miflərlə bağlı cəhətləri araşdırır.

Mifopoetika üçün mətnin fantastikliyi, tarixiliyi, mifoloji olması, eyni zamanda, poetikliyi mühüm şərtdir. Lakin o sadəcə mif və ya mifologiyanın predmeti olan cəhətləri şərh etmir, mifopoetikanın əsas məqsədi mifin, mifoloji obrazların və motivlərin fərdi yaradıcılıq prosesindəki transformasiyasını, arxaik-mifoloji elementlərin mətnə daxil edilməsinin prinsiplərini, ədəbi priyomlarını öyrənməkdir. Y.V.Sodatkinanın qeyd etdiyi kimi, "bu anlayışın iki əsas mənası var: 1) bədii mətndə mifoloji obrazların, motivlərin, illüziya və xatirələrin funksioanallığı, həmin formal və semantik transformasiyanın səbəb və xüsusiyyətləri; 2) müəlliflər tərəfindən yaradılan yeni mifologemlər və daha geniş şəkildə – yeni müəllif mifləri, bədii neomifologizm" [12, s.8].

Əsərə mifopoetik yanaşma müəllifin dünyagörüşünü də daha yaxşı xarakterizə etməyə imkan verir, mif və mifologemlər ədəbiyyatla yanaşı, bir çox mühüm sahələrlə bağlı olduğu üçün onların bədii mətndə istifadəsi yazıçının mədəni, fəlsəfi, tarixi dünyagörüşünün səviyyəsini də öyrənməyə şərait yaradır.

Fərdi yaradıcılığın mifopoetik aspektdə dəyərləndirilməsi məsələlərini bir çox müəlliflər XX əsrə aid edirlər. Bu onunla bağlı idi ki, XX əsrin sonlarına doğru miflərin vasitəsilə dünyanın yeni modelini yaratmaq, modern həyatın problem və psixoloji sarsıntılarına qarşı yeni düşüncə tərzi formalaşdırmaq üçün miflərə maraq artmışdır. "Müəllifin mifopoetik məkanı fenomeni iyirminci əsrə aiddir... Mifopoetik məkan fövqəlmillidir, o xalqların və ya yaradıcı güclərin tarixi inkişafına deyil, ədəbiyyatın inkişaf tarixinə aiddir" [13]. Y.M.Lotman da "mifologizmin tipoloji universal hadisə olaraq qəbul edilməsi dünyanın şərti-məntiqi mənzərəsi ilə tam bir uygunluq təşkil edir", – sözləriylə uyğun fikirləri ifadə etmişdir [7, s.66].

Sözügedən cəhətlər onunla bağlıdır ki, XX əsrin ikinci yarısından sonra ədəbiyyatda miflərə yanaşma prinsiplərində bir çox fərqli tendensiyalara təsadüf olunmağa başlanılmışdır. "Son zamanlar elmdə baş vermiş yanaşmalar "mif" sözünün ən azı üç mənasını ayırd etməyə imkan verir: mif təhkiyə quruluşu, hekayə kimi; mif qədim dövrdə dünya haqqında formalaşmış xüsusi düşüncə forması kimi; mif elmi əsası olmayan illüziya kimi" [15]. Modern dönəmdə mifə yanaşmada diqqəti çəkən ən mühüm cəhətlərdən biri, qeyd olunduğu kimi, ona "uydurma" kimi deyil, "həqiqi bir hekayə" kimi müqəddəs və dəyərli şəkildə yanaşılması ilə bağlı idi.

Mif bədii vasitə kimi gerçəkliyin realist təsviri imkanlarını artırdığı üçün ondan realist əsərlərdə hər zaman istifadə edilmişdir. Ona görə XX əsrdə mifoloji nəzəriyyənin fundamental prinsiplərinə dəfələrlə eyni bir niyyətlə – ədəbiyyatın bütün dövrlər üçün səciyyəvi olan arxetiplərini, universal miflərini ortaya çıxarmaq üçün müraciət edilirdi.

F.e.d. Pərvanə İsayeva da keçən əsrdə mifopoetik sistemin formalaşması məsələsinə diqqət yetirmişdir: "XX əsrin ortalarından başlayaraq dünya ədəbiyyatında mif və mifoloji təfəkkürə qayıdış prosesi intensivlik qazanmışdır. Bu, mifin təbiətindəki özünüqoruma, canlı və daima yenilənə bilən təbiəti ilə bağlıdır. Bədii mətndə də mifoloji obraz və motivlər əsərin əsas və alt qatıdır. Mövzu və ideyanın bu alt qatlardakı ornamentallığın hesabına güclənməsi bədii mətnin mövcud ideologiyalardan daha çox bəşəri xüsusiyyəti ilə seçilməsinə şərait yaradır. Mif və ədəbiyyatın bütövləşdiyi bədii ədəbiyyat nümunələri müasir ədəbiyyatşünaslıqda "mifopoeziya", "mifosentrik əsər", "mifogen ədəbiyyat", "magik realizm" kimi istilahlarla izah olunsa da, əksər nəzəri ədəbiyyatlarda E.A.Meletinskinin "mifopoetika" anlayışı daha məqbul hesab edilmişdir" [8, s.8]. E.A.Meletinskinin "Poetika mifa" – "Mifin poetikası" əsəri bu sahədə əhəmiyyətli araşdırmalardan biridir və tədqiqatçı burada XX əsr modernist romanındakı mifin poetikasının tarixi aspektdən tədqiqini vermiş-

dir. E.A.Meletinski modernist romanları XIX əsr realist romanlarına qarşı qoyaraq, bu janr üçün mifologizmin invariant xüsusiyyətlərini müəyyən etmişdir. Bu xüsusiyyətlər arasında zamanın relativistik təfsiri, universal şüuraltı psixologiyasına müraciət, mifoloji simvolizm kimi cəhətlər yer almaqdadır.

XX əsrdə bədii mətn poetikasında miflərin rolu daha əvvəlki klassik ədəbi mənbələrdən bir çox cəhətləri ilə fərqlənir. Burada mif artıq süjetə daxil olmuş sadə obraz deyil, ədəbi üsluba xidmət edən bir vasitə kimi çıxış edir. Mifin obraz, motiv, yaddaş diskursu və s. kimi əsərə daxil olunması yox, yazıçının bədii mətndəki ədəbi manevrləri ilə bağlılığı əsasdır. "Müasir dünyaduyumunun yaratdığı bədii materiallara mif mətni, mifoloji obrazlar və mifoloji motivlərin proyeksiya olunmasının bir çox yolları var. Burada janrın yaddaşı, kollektiv təhtəlşüur, eləcə də müəllifin arxaik strukturlara, obrazlara, süjetlərə marağı və mifoloji paradiqmalara şüurlu şəkildə meyillənməsidir" [14].

Mifopoetika yazıçının mifoloji xarakterin qeyri-mifoloji mətnə interpretasiyasının fərdi keyfiyyətləri ilə mühüm şəkildə bağlıdır. Buna görə də bədii əsərdə mifoloji obrazlar və yaxud mifolofi kateqoriyanın digər atributları həm açıq şəkildə, həm də sətirlər arasında örtülü formada təqdim oluna bilər. Burada mifopoetikanın rolu gizlədilmiş mənaların ortaya çıxarılmasındadır. Əsərdəki quruluş oxucuların inamını qazanaraq və onların psixoloji yaşantılarına təsir etməklə mifoloji sferaya daxil olur ki, mifopoetika da belə mətnləri araşdırır. "Mifoloji sxemlərin istifadəsi, ilk növbədə, "qısa müddətdə bütün böyük həcmli məzmun planını (iqtisadi aspekti) yazmaq və ikincisi isə, romanın sahəsini maksimuma qədər genişləndirmək, ölçüsünü artırmaq və bu məkan daxilində elementləri birləşdirmək imkanını (nəzəri və məlumat aspekti) artırmağa imkan verir" [11, s.195]. Bədii mətnin mifopoetik strukturu onun imkanlarını xeyli dərəcədə genişləndirir. Belə ki, romanların mifopoetik strukturu onun məkan və zaman parametrlərini də genişləndirir, məhdud çərçivədən universalizmə doğru üfüqlər açır.

Mifopoetikanın miflərə münasibətində bəzi incə məqamları da diqqətə almaq lazımdır. Mifopoetikanın təhlil obyekti olan miflərin işləndiyi bədii mətndə həmin miflər yeni funksionallıq qazansa və mifologemlərə çevrilsə də, onlar öz ilkin keyfiyyətini tamamilə itirmir, passiv şəkildə, mətnin alt qatında mühafizə olunur. V.N.Toporov bu kontekstdə haqlı olaraq yazır: "Mifopoetika" özündə zamandan asılı olmayaraq təkcə bədii şüurun deyil, ümumilikdə insan şüurunun əsas xüsusiyyətlərini ehtiva edir. Ədəbi mətndə bir mifin funksionallığı problemi iki şəkildə şərh olunur: bir tərəfdən, mətnlər mifin "mənbələri" və ya "daşıyıcıları"nın "passiv" funksiyasını yerinə yetirir, digər tərəfdən onlar özləri "mifoloji forma və oyun" kəsb etdikdə "aktiv" olur. [11, s.4]. O.Pançuk isə klassik, ənənəvi mifin mifologemə çevrilməsində miflərin "dialoq təbiətinin" roluna diqqət yetirir: "Mifopoetika mifin "dialoq təbiətindən" fəal istifadə edir ki, onun köməyilə ədəbiyyatda "yeni mif" formalaşır. Bir qayda olaraq, yeni ədəbi xatırlatma, çirklənmə, korrelyasiya qazanmış klassik miflər əsas götürülür. Onlar müəllifə ənənəvi miflərlə bəzi dialoqlar aparmağa, klassik mifi dağıdıb onun yerində yenisini yaratmağa imkan verir" [9]. "Məhz mədəni yaddaş bədii yaradıcılıqda "dünyanın mifopetik mənzərəsini" identifikasiya, rekonsturksiya, formalaşdırma və dil vasitələri ilə təqdim etmək imkanı yaradır", – deyən S.V.Volkova da uyğun düşüncədən çıxış etmişdir [6].

## Nəticə / *Conclusion*

Beləliklə, XX əsr dünya ədəbiyyatında miflərə dönüş, onlardan dövrün tendensiyalarına və ədəbi tərzinə uyğun şəkildə istifadə tez-tez müşahidə olunan cəhətlərdən idi. Mifologiya bir ədəbiyyatın əsas xarakterini göstərən mühüm tərkib hissəsi olduğu üçün, hər yeni mərhələ onu fərqli və özünəməxsus şəkildə təzahür etdirirdi. Mifoloji ünsürlərin istifadəsi isə yazıçıdan tarixi-fəlsəfi və ədəbi-mədəni səviyyə tələb edir.

**Ədəbiyyat / *References***


1. Eliade Mircea. Mitlerin Özellikleri (çev. Sema Rifat). İstanbul, Om Yayınevi, 2001.
2. Hacılı Asif. Mifopoetik təfəkkür fəlsəfəsi. Bakı, “Mütərcim”, 2002.
3. İşler Ertuğrul. Andre Gide'i Mitlerle Okumak. Ankara, Anı Yayıncılık, 1994.
4. Öztürk Özhan. Dünya Mitolojisi. Ankara, Nika Yayınevi, 2016.
5. Veyne Paul. Yunanlılar Mitlerine İnanmışlar mıydı?, Ankara, Dost Kitabevi, 2003.
6. Волкова С.В. Мифопоэтика америндской художественной прозы. Наукові записки. Серія “Філологічна”. file:///C:/Users/Admin/Downloads/Nznuoaf_2013_36_37%20(1).pdf
7. Лотман Ю.М. Избранные статьи. Т.1. Статьи по семиотике и типологии культуры. Таллинн, 1992.
8. Мелетинский Е.М. Поэтика мифа / Е.М.Мелетинский. Москва, Издательская фирма “Восточная литература” РАН, 2000.
9. Панчук О. Мифопоэтические исследования в современном русском и украинском литературоведении. https://dspace.uzhnu.edu.ua/jspui/bitstream/lib/23137/1/%
10. Токарева Г.А. Мифопоэтика У.Блейка http://lit-prosv.niv.ru/lit-prosv/tokareva-mifopoetika-blejka/index.htm
11. Топоров В.Н. Миф. Ритуал. Символ. Образ: Исследования в области мифопоэтического: Избранное. Москва, Издательская группа “Прогресс” – “Культура”, 1995.
12. Солдаткина Я.В. Мифопоэтика русской прозы 1930-1950-х годов (А.П. Платонов, М.А. Шолохов, Б.Л. Пастернак). Доктор. диссерт. 2012.
13. Эрандил (Семёнов А.И.) Мифопоэтическое пространство в литературе XX века. http://www.tolkien.spb.ru/mifop.htm
14. http://www.turkishstudies.net/files/turkishstudies/192424827_9ne-edb_S-123-130.pdf
15. http://lit-prosv.niv.ru/lit-prosv/tokareva-mifopoetika-blejka/mif-i-mifopoetika.htm


## Обший взгляд на мифопоэтику


**Лейла Багирова**
Азербайджанский Университет Языков. Азербайджан.
E-mail: leyla_ceferi@mail.ru



**Резюме.** Миф – это поэтическое воплощение реальности в подсознании. Мифы возникли в древние времена как продукт человеческих попыток назвать существование и Вселенную. После второй половины двадцатого века в литературе стало проявляться множество различных тенденций, касающихся принципов подхода к мифам. Это положило начало развитию мифопоэтики. Мифопоэтика образует ветвь поэтики, подходя к художественному тексту с мифологической точки зрения и изучая его мифологическую структуру и образы. Мифопоэтика изучает формы и особенности писательской интерпретации мифологического персонажа в немифологический текст.



**Ключевые слова**: мифопоэтика, миф, мифология, поэтика, мифологема